№ 73 (4373) 07 may 2020-ci il

# TARIXIN ƏN GÜCLÜ AZƏRBAYCANINI YARADAN ŞƏXSİYYƏT!



Ümummilli liderimiz, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev bəşəriyyətin yetirdiyi dahi şəxsiyyətlərdəndir. Müasir Azərbaycanın bütöv bir qərinəsi, 34 illik bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər rəhbəri olduğu Azərbaycanın bütün məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət, xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxarmış, müasir Azərbaycanın işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır.

Bu gün öz uğurlu daxili və xarici siyasəti ilə dünya birliyində özünə layiqli yer tutan Azərbaycan Respublikasının demokratik, hüquqi, dünyəvi dövlət kimi əsasları və onun təsisatları məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Böyük dövlət adamı, əsrimizin nadir siyasi xadimi olan Heydər Əliyev dühasını tam anlaya bilmək üçün Azərbaycan xalqının və dövlətçiliyimizin tarixindən önəmli nəticələr çıxarmalıyıq.

Hamınız bilirsiz ki, Azərbaycan Xalq Cumhuriyyəti süquta uğradıqdan sonra milli ziyalılarımızın böyük bir qismi ya fiziki olaraq məhv edildi və ya mühacirətə getdi. Vətəndə qalmış, yeni qurulmuş dövlətin bütün xalqların və fəhlə-kəndli sinfinin dövləti olacağına inanmış ziyalıların əksəriyyəti isə 1930-cu illərdə repressiyaya məruz qaldı, ailələri sürgün olundu. Sürgünə göndərilən təkcə ziyalılar olmadı, hətta öz zəhməti ilə 3-5 inəkdən və qoyundan olan təsərrüfat qura bilmiş kəndlilər belə "kulak" damğası ilə vətəndən sürgün edildi. Bu xalqımızın öz müstəqil dövlətini qoruya bilməməsinə görə ödədiyi bədəl idi.

Xalqımız istər ikinci dünya müharibəsində qazanılmış qələbədə, istərsə də müharibədən sonrakı ilk beşilliklərdə SSRİ iqtisadiyyatının bərpası və inkişafında mühüm rol oynasa da bir sıra obyektiv və subyektiv səbəblər üzündən 60-cı illərdə respublikamızın inkişafı getdikcə ləngidi və bu, əhalinin sosial vəziyyətinə mənfi təsir göstərməyə başladı. Və bu gerilik getdikcə artırdı. Digər ittifaq respublikalarında iri sənaye müəssisələri və yeni şəhərlər inşa edildiyi halda, Azərbaycan bu inkişafdan kənarda saxlanılmışdı. Kənd təsərrüfatı xüsusilə ağır vəziyyətə düşmüşdü.

Respublikanın düşdüyü həmin ağır vəziyyətdə Azərbaycan rəhbərliyində mühüm dəyişiklik baş verdi; 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyinin Birinci dövrü başlandı. Doğma xalqının böyük təəssubkeşi olan Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün geniş islahatlar proqramı həyata keçirməyə başladı.

1969-cu ildə Sovet Azərbaycanının tarixində böyük dönüş dövrü başlandı. Tarixi inkişafın sonrakı gedişi sübut etdi ki, bugünkü yeni, müstəqil Azərbaycanı Heydər Əliyev hələ o zaman qurmağa başlamışdı.

1970-1985-ci illər ərzində Azərbaycanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan mütəxəssis ordusunun yaradılması idi. Azərbaycanın gələcək inkişafına ünvanlanmış strateji əhəmiyyətli bütün bu işlərə Heydər Əliyev şəxsən özü başçılıq edirdi. Bir sözlə, daim xalqının gələcəyini düşünən böyük azərbaycanlı, hələ o vaxtlar zamanı qabaqlayaraq XXI yüzilliyin Azərbaycanı üçün güclü kadr potensialı yaradırdı.

Heydər Əliyevin həyata keçirdiyi kompleks inkişaf proqramları nəticəsində Azərbaycan o zaman böyük SSRİ məkanında qabaqcıl sənaye, kənd təsərrüfatı və mədəniyyət respublikasına çevrildi.

Heydər Əliyev hələ o zaman doğma Vətənini müstəqil yaşadığımız bu günlər üçün hazırlayırdı. Böyük düha sahibi yeni Azərbaycanı - bugünkü Azərbaycanı hələ o vaxtdan qurmağa başlamışdı!

Beləliklə, Heydər Əliyevin doğma xalqı qarşısında ən böyük xidmətlərindən biri də bu idi ki, 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunarkən Azərbaycan artıq müstəqil bir dövlət kimi yaşamağa tamamilə hazır idi.

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün bu genişmiqyaslı işlərin çox böyük tarixi əhəmiyyəti bundan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı.

Heydər Əliyevin xalqımızın istiqlal mübarizəsi tarixində xidməti misilsizdir. Yaşlı nəslin xatirindədir, 1991-ci ilin mart ayının əvvəllərində Azərbaycan Respublikası Ali Soveti SSRİ-nin saxlanması haqqında referendumun keçirilməsi məsələsini müzakirə edərkən, deputat Heydər Əliyev böyük təzyiqlər qarşısında yalqız qaya kimi dayanaraq açıq-aşkar bəyan etdi: "Bəli, mən bütün şüurlu həyatımı Sovetlər Birliyinin möhkəmləndirilməsinə həsr etmişəm, amma bu gün aydın görürəm ki, respublika başqa yolla getməlidir". Onun son sözləri – "Mən Azərbaycanın müstəqilliyinin lehinə, birliyə qoşulmasının və referendumun keçirilməsinin əleyhinəyəm" fikrini o vaxt mütəllibovçular qulaq ardına vurdular.

Zaman göstərdi ki, möhtəşəm siyasətçi və strateq Heydər Əliyev həmişəki kimi haqlı idi..

1980-ci illərin sonlarında müstəmləkə əsarəti altında olan digər xalqlarla birlikdə Azərbaycan xalqının apardığı mübarizə öz məntiqi nəticəsinə çatdı – SSRİ süqut etdi.

Keçmiş sovet respublikaları müstəqilliyi nominal əldə etməklə yanaşı, müstəqil olmaq hüququnu beynəlxalq arenada de-fakto təsdiq etməli idilər.

Lakin hamınız bilirsiz ki, heç də bütün keçmiş SSRİ respublikaları de-yure müstəqilliklərini de-fakto formatında təmin edə bilmədilər.

Bu regionda dövlət müstəqilliyinin nümunəvi modelini Azərbaycan nümayiş etdirir. Azərbaycan bu gün keçmiş sovet respublikaları içində özünü tam təmin edən, öz sözünü deyə bilən, müstəqil siyasət yürüdən yeganə dövlətdir.

Onu da nəzərə almaq lazımdır ki, Azərbaycanın müstəqilliyinin ilk illərində sabib olduğu inkişaf imkanları digər post-sovet dövlətləri ilə müqayisədə daha əlverişsiz idi: qanlı Qarabağ müharibəsi, torpaqların işğalı, milyonlarla qaçqın axını... Müstəqil yaşamaq hüququmuzu təsdiq etmək bizim üçün daha çətin idi.

O ağr günlərdə millətin və dövlətin xilaskarı Heydər Əliyev oldu. Onun ağlasığmaz cəhdləri sayəsində Azərbaycanın Əfqanıstana, bu günki Suriyaya, İraqa çevrilməsi təhlükəsinin qarşısı alındı.

Ulu öndər möhkəm hakimiyyət qurmağa və müstəqilliyin ilk illərində dövlətin mövcudluğu üçün hüquqi, siyasi və iqtisadi əsasları bərqərar etməyə müyəssər oldu.

Azərbaycan xalqı öz dövlət müstəqilliyini əldə etdikdən sonra cəmiyyətin gələcək inkişafı üçün hüquqi islahatların həyata keçirilməsi, tamamilə yeni mütərəqqi və demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin, qanunvericilik bazasının formalaşdırılması zəruri idi. Heydər Əliyev qısa zaman kəsiyində Azərbaycanda davamlı ictimai-siyasi sabit təmin etməyə nail olmaqla yanaşı, vətəndaşların hüquq və mənafelərini qoruyan, beynəlxalq münasibətlər sisteminə isteqrasiyanı təmin edən, sosial ədalət prinsipinə əsasən bir sistem qurdu.

Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Şərqdə ilk dəfə, 1993-cü ildə Azərbaycanda ölüm cəzasının icrasına moratorium qoyulmuş, 1998-ci il fevralın 10-da isə Azərbaycanda ölüm cəzası ləğv edilmişdir.

Ölkəmiz müstəqilliyinə qovuşduqdan sonra olduqca çətin şəraitdə, siyasi-hüquqi, sosial-iqtisadi vəziyyətin ağır olduğu bir dövrdə ölkənin ali hüquqi qüvvəyə malik sənədini – Konstitusiyasını hazırlamaq, özü də müxtəlif siyasi qüvvələrin təsirindən azad, demokratik dəyərlərə əsaslanan, xalqın iradəsini tam əks etdirən bir formada qəbul etmək olduqca çətin idi.

Bu taleyüklü, xüsusi həssaslıq və güclü siyasi iradə tələb edən məsələnin həlli də məhz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması və qəbul edilməsi məhz xalqımızın ümummilli lideri Heydər Əliyevin dönməz iradəsi, gərgin əməyi, dərin hüquq düşüncəsi və siyasi uzaqgörənliyi nəticəsində mümkün olmuşdur.

Azərbaycan xalqının özünün çoxəsrlik tarixində sahib olduğu ilk və yeganə Konstitusiya özünün hüquqilik dəyərinə, demokratiklik əlamətlərinə görə dünyanın bir çox inkişaf etmiş dövlətlərinin konstitusiyaları ilə müqayisədə daha təkmil və əhatəlidir. Konstitusiyamız Azərbaycan xalqını dövlət hakimiyyətinin yeganə mənbəyi kimi bəyan edir. Dövlətin idarəetmə mexanizmi isə dünyanın demokratik cəhətdən inkişaf etmiş ölkələrində əsas meyar kimi götürülərək sınaqdan çıxmış hakimiyyətin səlahiyyətlər bölgüsü əsasında həyata keçirilməsi prinsipinə əsasən təşkil olunmuşdur. Beləliklə, dövlət hakimiyyəti 3 qola – qanunverici, icra və məhkəmə hakimiyyətlərinə bölünərək yüksək hüquqi imperativlərə və hüququn aliliyinə tabe edilmişdir.

Ümummilli lider Heydər Əliyev təfəfindən həmin dövr üçün ağlasığmaz olan və tarix üçün çox qısa zaman ərzində məhkəmə-hüquq islahatları həyata keçirilmişdir. Belə ki, qeyd edilən islahatların həyata keçirilməsinin təmin edilməsi məqsədi ilə 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaradılmış, «Məhkəmələr və hakimlər haqqında», «Konstitusiya Məhkəməsi haqqında», «Prokurorluq haqqında», «Polis haqqında» Qanunlar, habelə hazırda qüvvədə olan digər normativ hüquqi aktlar, eləcə də Məcəllələr qəbul olunmuşdur. 1998-ci ilin iyul ayında isə Konstitusiya nəzarəti orqanı olan Konstitusiya Məhkəməsi yaradılmış, 2000-ci ilin sentyabr ayında Azərbaycanda üçpilləli yeni məhkəmə sistemi fəaliyyətə başlamış və bunun davamı olaraq 2004-cü ildə məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası təsis edilmişdir. Bütün bunlar isə qanunun aliliyini təmin etmişdir.

Ümumilli liderin Prezidentliyi dövründə ölkəmiz insan hüquq və azadlıqlarının, eləcə də demokratik təsisatların inkişafı ilə bağlı bir sıra mühüm beynəlxalq sənədlərə qoşulmuş, bütün bunların nəticəsi kimi 1996-cı ildən Avropa Şurasında "xüsusi qonaq statusu" ilə təmsil olunan Azərbaycan 2001-ci ilin yanvar ayından qurumun Nazirlər Komitəsinin qərarı ilə Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edilmişdir.

Heydər Əliyevdən sonra onun istedadlı davamçısı cənab İlham Əliyev xalqın dəstəyinə və etimadına arxalanmaqla, özünün ölçülüb-biçilmiş, praqmatik siyasəti ilə dünya birliyinə sübut etdi ki, suveren Azərbaycanın bu gün müstəqil dövlət adlandırılmağa tam haqqı var.

Bu gün hüquqi və konstitusion islahatlar çərçivəsində Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi istiqamətində ölkə başçısı cənab İlham Əliyev tərəfindən çoxşaxəli islahatlar həyata keçirilir. Vətəndaş hüquqlarının daha asan həyata keçirilməsini təmin etmək məqsədilə yeni mexanizmlər, təsisatlar yaradılır və bütün bunlar da insanlara öz konstitusion hüquqlarını sərbəst və maneəsiz şəkildə həyata keçirməyə imkan yaradır.

Azərbaycan – maliyyə böhranlarının, fasiləsiz inqilabların və terror hücumlarının baş verdiyi dünyada siyasi-iqtisadi sabitlik olan az saylı dövlətlərdən biridir. Bu dövlət isə Azərbaycan xalqına ümummilli lider Heydər Əliyevin əmanətidir. Azərbaycan Respublikasının hər bir vətəndaşı ona əmanət edilmiş dövləti, iqtisadi-siyasi sabitliyi, ümummilli lider Heydər Əliyevin maddi-mənəvi irsini qorumalı və bunun üçün cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşməli, onun siyasi əqidəsinə sadiq qalmalıdır.

***Rəfayil ƏLIYEV,***
***Biləsuvar rayon məhkəməsinin sədri***